AZƏRBAYCAN BANKLAR ASSOSİASİYASI

# RUSİYA VƏ BELARUSDA UÇOT DƏRƏCƏSİNİN VƏ RİTEYL BANKÇILIQ ÜZRƏ FAİZ DƏRƏCƏLƏRİNİN NEQATİV MƏZƏNNƏ ŞOKUNA REAKSİYASI

*Bəhruz Əhmədov*

Bakı - 2016

## 1. Rusiya nümunəsi

ABŞ dollarının sürətli bahalaşması fonunda rublun cəlbediciliyini qorumaq - gəlirliliyini artırmaqla risk profilinə uyğunlaşdırmaq - məqsədilə Rusiya (Mərkəzi) Bankı 2014-cü ilin dekabrında yenidənmaliyyələşdirmə üzrə faiz dərəcəsini 8.25%-dən 16%-ə qaldırmışdır. Rusiya kommersiya bankları dərhal həm rublda, həm də xarici valyutada əmanətlər üzrə faiz dərəcələrini yüksəltməklə buna reaksiya vermişdir.
ABŞ dollarının sürətlə bahalaşması bu valyutadakı əmanətlərin gəlirliliyini avtomatik şəkildə artırdığından sözügedən əmanətlər üzrə faiz dərəcələrində daha az yüksəlmə baş vermişdir (1.5-3 faiz bəndi). Ən çox artım rublla qısamüddətli (1 ilə qədər) əmanətlərin faizlərində müşahidə olunmuşdur (orta hesabla 6.06 faiz bəndi).

**Diaqram 1.** Əmanətlər üzrə faiz dərəcələrinin məzənnə şokuna və yenidənmaliyyələşdirmə faizinə reaksiyası




Bu yüksəliş iki ay davam etmiş və fevraldan etibarən rublun qısamüddətli bahalaşmasına reaksiya olaraq Rusiya (Mərkəzi) Bankının yenidənmaliyyələşdirmə

faizini tədricən endirməyə başlaması ilə rublla əmanət faizləri də enmə trendinə keçmişdir.

ABŞ dollarının 2015-ci ilin apelindən sonrakı ikinci dalğa bahalaşmasında Rusiya (Mərkəzi) Bankının yenidənmaliyyələşdirmə faizini endirməyə davam etməsi rublla əmanət faizlərinin də zəif templi enməsi ilə müşaiyət olunmuşdur. Beləliklə, rublun ucuzlaşmasına reaksiya kimi rublla əmanətlər üzrə gəlirliliyin artması (faiz dərəcələrin yüksəlməsi) qısamüddətli xarakter daşımışdır. ***(Bax: Diaqram 1.)***

**Diaqram 2. Fiziki şəxslərə kreditlər üzrə faiz dərəcələrinin məzənnə şokuna və yenidənmaliyyələşdirmə faizinə reaksiyası**




Yenidənmaliyyələşdirmə faizinin artırılmasına bağlı olaraq rublla əmanətlər üzrə faiz dərəcələrindəki sıçrayışa rublla riteyl kredit faizləri də adekvat reaksiya vermişdir. Sözügedən sıçrayışdan sonrakı bir ay ərzində fiziki şəxslərə verilən rublla qısamüddətli (1 ilə qədər) kredit faizlərində yüksəlmə müşahidə edilmiş, bu növ kreditlər üzrə orta

faiz dərəcələri 4.3 faiz bəndi artaraq 29.1%-ə çatmışdır. Fiziki şəxslərə rublla 1 ildən artıq dövr üçün verilən kreditlərin faiz dərəcələrində də artım müşahidə olunmuş, bu növ kreditlər üzrə orta faiz dərəcəsi yenidənmaliyyələşdirmə faizindəki artımdan sonrakı iki ay ərzində 3.1 faiz bəndi yüksələrək 20.5%-i keçmişdir. Ancaq kredit faizləri üzrə bu artım da əmanət faizlərindəki kimi qısamüddətli olmuş, 2-3 ay sonra azalma ilə əvəz olunmuşdur. ***(Bax: Diaqram 2.)***

**Cədvəl 1.** Neft qiymәti, rublun mәzәnnәsi vә Rusiya maliyyә bazarlarında faiz dәrәcәlәri: korrelyasiya matrisi (2014-2015-ci illәrin aylıq göstәricilәri әsasında)

| | Neft qiymәti | Rubl/USD mәzәnnәsi | Yenidәnmaliyyәlәşdirmә faizi | Rublla әmanәtlәr üzrә % dәrәcәlәri (1 ilә qәdәr) | Rublla әmanәtlәr üzrә % dәrәcәlәri (1 ildәn yuxarı) | Fiziki şәxslәrә rublla kreditlәr üzrә % dәrәcәlәri (1 ilә qәdәr) | Fiziki şәxslәrә rublla kreditlәr % dәrәcәlәri (1 ildәn yuxarı) |
|---|---|---|---|---|---|---|---|
| Neft qiymәti | **1** | | | | | | |
| Rubl/USD mәzәnnәsi | -0.98 | **1** | | | | | |
| Yenidәnmaliyyәlәşdirmә faizi | -0.72 | 0.70 | **1** | | | | |
| Rublla әmanәtlәr üzrә % dәrәcәlәri (1 ilә qәdәr) | -0.82 | 0.81 | 0.96 | **1** | | | |
| Rublla әmanәtlәr üzrә % dәrәcәlәri (1 ildәn yuxarı) | -0.80 | 0.79 | 0.97 | 0.98 | **1** | | |
| Fiziki şәxslәrә rublla kreditlәr üzrә % dәrәcәlәri (1 ilә qәdәr) | -0.74 | 0.72 | 0.73 | 0.79 | 0.82 | **1** | |
| Fiziki şәxslәrә rublla kreditlәr % dәrәcәlәri (1 ildәn yuxarı) | -0.65 | 0.57 | 0.60 | 0.66 | 0.67 | 0.78 | **1** |

## 2. Belarus nümunəsi

Belarus maliyyə bazarlarında faiz dərəcələrinin belarus rublunun kəskin ucuzlaşmasına reaksiyası Rusiyadakı vəziyyətlə eynilik təşkil etməsə də, bu iki ölkə nümunələrində bənzərlik mövcuddur. Belarusda da yeli valyutanın kəskin ucuzlaşması ilə (daha dəqiq desək ondan bir ay əvvəldən başlayaraq) əmanət faizlərində qısamüddətli yüksəliş müşahidə edilmişdir: belarus rublu ilə qısamüddətli əmanətlər üzə orta faiz dərəcələri 21.9 faiz bəndi arataraq fevralda 47.2%-ə çatmış, uzunmüddətli əmanətlərdə isə bu artım 18.3 faiz bəndi təşkil etmişdir və nəticədə bu növ əmanətlər üzrə orta faiz dərəcəsi 46.9%-ə çatmışdır. 2015-ci ilin mart-may aylarında yerli valyutanın zəif bahalaşma meyli belarus rublunda saxlanan əmanətlər üçün təklif edilən faiz dərəcələrinin yüksəlişdən əvvəlki səviyyəyə qədər qayıtması ilə nəticələnmiş, ABŞ dollarının ikinci bahalaşma dalğasında Rusiyada olduğu kimi Belarusda da faiz dərəcələri bu yüksəlişə artımla reaksiya verməmişdir. ***(Bax: Diaqram 3.)***

**Diaqram 3. Milli valyutada əmanət faizlərinin məzənnə şokuna reaksiyası**



Belarus Milli Bankı Rusiya (Mərkəzi) Bankından fərqli olaraq proseslərə çox gec reaksiya vermiş, yanvarda yerli valyutanın kəskin ucuzlaşmasından 8 ay sonra yenidənmaliyyələşdirmə faizini 5 faiz bəndi atıraraq 25%-ə çatdırmışdır. Bu artım nə əmanət, nə də kredit faizlərində əhəmiyyətli artımla müşaiyət olunmamışdır.

**Diaqram 4. Fiziki şəxslərə milli valyutada kreditlər üzrə faizlərin məzənnə şokuna reaksiyası**




Belarus rublunun kəskin ucuzlaşması yerli valyuta ilə əmanət faizlərində olduğu kimi həmin valyutadakı kredit faizlərində də qısamüddətli artımla müşaiyət edilmişdir. Yerli valyutanın 38%-ə qədər ucuzlaşdığı yanvar-fevral aylarında belarus rublu ilə fiziki şəxslərə təklif edilmiş qısamüddətli kreditlər üzrə faiz dərəcələri 10 faiz bəndi artaraq 36.7%-ə çatmış, həmin ilin iyul ayına qədər isə yenidən 28%-ə qədər enmişdir.

Belarus rublu ilə uzunmüddətli kreditlər üzrə faiz dərəcələrində 2015-ci ilin mayında ani sıçrayış (4.1 faiz bəndi artım) müşahidə olunsa da, ardınca bu enmə trrendi ilə əvəz olunmuşdur. ***(Bax: Diaqram 4.)***

| **Cədvəl 2.** Belarus rublunun məzənnəsi və ölkənin maliyyə bazarlarında faiz dərəcələri: korrelyasiya matrisi (2014-2015-ci illərin aylıq göstəriciləri əsasında) | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Belarus rublu/USD məzənnəsi | Yenidənmaliyyələşdirmə faizi | Belarus rublu ilə əmanətlər üzrə % dərəcələri (1 ilə qədər) | Belarus rublu ilə əmanətlər üzrə % dərəcələri (1ildən yuxarı) | Fiziki şəxslərə belarus rublu ilə kreditlər (1 ilə qədər) | Fiziki şəxslərə belarus rublu ilə kreditlər (1 ildən yuxarı) |
| Belarus rublu/USD məzənnəsi | **1** | | | | | |
| Yenidənmaliyyələşdirmə faizi | 0.17 | **1** | | | | |
| Belarus rublu ilə əmanətlər üzrə % dərəcələri (1 ilə qədər) | -0.29 | -0.01 | **1** | | | |
| Belarus rublu ilə əmanətlər üzrə % dərəcələri (1ildən yuxarı) | -0.32 | 0.01 | 0.99 | **1** | | |
| Fiziki şəxslərə belarus rublu ilə kreditlər (1 ilə qədər) | 0.37 | -0.18 | 0.64 | 0.62 | **1** | |
| Fiziki şəxslərə belarus rublu ilə kreditlər (1 ildən yuxarı) | -0.36 | 0.21 | 0.24 | 0.25 | -0.03 | **1** |